Qəzet 1931-ci ilin aprelindən çıxır

# DƏNİZ

14 dekabr 2015-ci il
№ 43-44 (9001)
Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti

# Axtarış və yanğınsöndürmə əməliyyatı davam edir

2015-ci il dekabrın 4-də Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Günəşli" yatağının 10 saylı stasionar dərin dəniz özülündə kəskin hava şəraitinə görə başlamış yanğın barədə məlumat "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinə daxil olan kimi dərhal Gəmiçilik rəhbərliyinin və aidiyyəti mütəxəssislərin iştirakı ilə Böhran Qrupu toplanmışdır. Qəza yerində olan zərərçəkənlərin xilas edilməsi məqsədilə Böhran Qrupu müvafiq təyinatlı gəmilərin hadisə yerinə göndərilməsi barədə qərar qəbul etmişdir. Gəmiçiliyin "Lənkəran", "Samir Quliyev", "Avior", texniki istismarı AXDG-də, idarəolunması FHN-də olan "Vixr-5" və "Vixr-8" gəmiləri 10 saylı stasionar dərin dəniz özülünün yerləşdiyi sahəyə dərhal mobilizasiya edilmişlər.

Hadisə yerinə həmçinin AXDG/BUE Caspian Alyansının "Topaz Dignity", "Caspian Protektor", "Bakı", "Caspian Endevour" gəmiləri və AXDG/Caspian Marine Services Alyansının "Müslüm Maqomayev" gəmisi də cəlb olunmuşdur. Böhran Qrupu SOCAR-ın və Fövqəladə Hallar Nazirliyinin səlahiyyətli şəxsləri ilə daimi əlaqə saxlayaraq, xilasetmə və yanğınsöndürmə əməliyyatlarının koordinasiyasını təmin etmişdir.

Özüldə insanların olduğu nəzərə alınaraq, ilk növbədə onların xilas edilməsinin vacibliyi əməliyyata cəlb olunmuş gəmilərin kapitanlarına çatdırılmışdır. Ağır hava şəraiti, qaranlıq və güclü qasırğa qəza yerindəki insanların xilas edilməsi işlərinin aparılmasını ciddi şəkildə çətinləşdirmiş, uzun müddət gəmilərin özülə yan almasına imkan verməmişdir. Görülmüş tədbirlər nəticəsində dekabrın 5-də yalnız "Müslüm Maqomayev" sərnişin gəmisinin xüsusi keçid körpüsü vasitəsilə 30 nəfər neftçini və vertolyotla qəza yerinə düşürülmüş 13 nəfər FHN işçisini özüldən götürmək mümkün olmuşdur.

Zərərçəkənlər xilas edildikdən sonra itkin düşənlərin axtarışı və yanğınsöndürmə tədbirləri davam etdirilir. Gəmiçiliyin "Lənkəran", texniki istismarı AXDG-də, idarəolunması FHN-də olan "Vixr-5", "Vixr-8" və "Vixr-9" gəmiləri, eləcədə AXDG/BUE Caspian Alyansının "Topaz Dignity", "Caspian Server", "Caspian Supporter" və "Caspian Voyager" gəmiləri özüldə yanğının söndürülməsində iştirak edir.

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin "İrgiz", "Nefteqaz-62", "Şirvan", "Ehram Xalıqov", "Om", "Samir Quliyev", "Avior", "Lyutoqa", "General Əliağa Şıxlinski" və s. gəmiləri itkin düşənlərin axtarışına cəlb olunmuşdur. Bununla yanaşı, Gəmiçiliyin Xəzərdə istismarda olan 200-ə yaxın gəmisinə axtarışla bağlı göstəriş verilmiş, o cümlədən su səthinin daimi müşahidəsini gücləndirmək tapşırılmışdır.

**www.acsc.az**
**7 dekabr 2015-ci il**

**ALLAH RƏHMƏT ELƏSİN**

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi "Günəşli" yatağındakı 10 nömrəli dəniz özülündə güclü qasırğanın doğurduğu qəza nəticəsində insanların faciəli vəfatından kədərləndiklərini bildirir, həlak olanların doğmalarına və yaxınlarına dərin hüzlə başsağlığı verir, onlara səbr diləyirlər.**

# Bərələrin hərəkət cədvəli açıqlandı

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Türkiyədən Qazaxıstan istiqamətində yük maşınları ilə daşıma həcmlərinin Xəzər üzərindən keçən marşrutla həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq göstərişlərini rəhbər tutaraq, yükdaşımaların yüksək səviyyədə təmin olunması üçün bütün zəruri tədbirləri görür.***

Dövlət başçısının 21 oktyabr 2015-ci il tarixli fərmanı ilə yaradılmış Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasında, habelə İqtisadiyyat və Sənaye Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə qeyri-neft ixracının genişləndirilməsinə dair son toplantıda biznes nümayəndələri tərəfindən səslənən təkliflər ölkənin tranzit imkanlarını genişləndirməklə yanaşı, yükdaşımalar sahəsində vahid tarif siyasətinin həyata keçirilməsinə, bu sahədə prosedurların sadələşdirilməsinə imkan verəcək ki, bu da ölkənin ixrac potensialının daha səmərəli reallaşdırılması baxımından əhəmiyyətlidir.

Eyni zamanda, Qazaxıstanın Aktau şəhərində yeni Logistik Mərkəzin istifadəyə verilməsini nəzərə alaraq, dekabrın 1-dən etibarən Bakı-Aktau və əks istiqamətdə təkərli texnika (yük maşınları, avtobuslar, sərnişin maşınları və s.) və dəmir yolu vaqonlarının daşınması üçün, gəmi-bərələr təsdiq olunmuş mütəmadi qrafik üzrə hərəkət edirlər.

Belə ki, Bakı-Aktau istiqamətində təkərli texnika və dəmiryol vaqonlarını daşıyan gəmilər həftənin hər çərşənbə axşamı və cümə günləri, Aktau-Bakı istiqamətində isə çərşənbə və şənbə günləri yola düşəcəklər (hava şəraiti ilə əlaqədar qrafikdə məcburi dəyişikliklərin edilməsi zərurəti olduqda, öncədən xəbərdarlıq ediləcəkdir):

| Bakı(Ələt)-Aktau | | Aktau-Bakı(Ələt) | |
|---|---|---|---|
| Çərşənbə axşamı | 12:00 | Çərşənbə | 23:00 |
| Cümə | 12:00 | Şənbə | 23:00 |




Zərurət yarandığı halda, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC artan yük həcmlərinin daşınması məqsədi ilə, qrafik üzrə gəmi səfərlərinin sayını tələbata uyğun artıracaqdır.

Bakı-Aktau və Aktau-Bakı istiqamətində daşımalar Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanından həyata keçirilir.

Gəmi-bərələrin səfərləri barədə, o cümlədən hava şəraitindən asılı olaraq gəmilərin limandan çıxış və təyinat limanına gəliş vaxtları haqqında məlumatlar onlayn rejimdə Gəmiçiliyin veb-saytında mütəmadi olaraq yerləşdiriləcəkdir.

**Əlaqə telefonları:**
**(+99412) 404 37 00 (dax. 1044)**
**(+99450) 664 68 69**
**E mail: ferry@acsc.az; <mailto:ferry@acsc.az;> javid.humbatov@acsc.az <mailto:javid.humbatov@acsc.az>**

# Gəmiçilik tarifləri azaldıb

**Türkiyədən Qazaxıstan istiqamətində yük maşınları ilə daşımalar üçün Xəzər üzərindən marşrutda əlverişli şəraitin yaradılması ilə əlaqədar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq göstərişlərini rəhbər tutaraq, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycandan Qazaxıstana dəniz yolu ilə daşıma tariflərinə 20%-ə qədər endirim tətbiq edir.**

Yeni tarif sürücü ilə birlikdə 1 standart qoşqulu yük avtomobilinin (16,5 metr uzunluqda TİR) bir istiqamətdə (Bakı-Aktau və ya Aktau-Bakı) daşınması üçün 1,200 ABŞ dolları məbləğində müəyyənləşdirilir. Geri dönüş üçün bilet öncədən alındığı halda, bu tarif hər iki istiqamətə bir qədər də aşağı, cəmi 2,100 ABŞ dolları təşkil edəcəkdir.

| Tarif, ABŞ dolları ilə | Bir tərəfə | İki tərəfə |
|---|---|---|
| Qoşqulu yük avtomobili (16,5 metr uzunluqda TİR) (1 nəfər sürücü daxil olmaqla) | 1,200 | 2,100 |

Bildiririk ki, Bakı-Aktau və Aktau-Bakı istiqamətlərində daşımalar Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanından aparılır.

# Azərbaycan Respublikasında 2016-cı il üçün yaşayış minimumu haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**Maddə 1. Əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği**

2016-cı il üçün yaşayış minimumu ölkə üzrə 136 manat, əmək qabiliyyətli əhali üçün 146 manat, pensiyaçılar üçün 115 manat, uşaqlar üçün 117 manat məbləğində müəyyən edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2016-cı il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 oktyabr 2015-ci il*

# Azərbaycan Respublikasında 2016-cı il üçün ehtiyac meyarının həddi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

**Maddə 1. Ehtiyac meyarının həddi**

Ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2016-cı il üçün ehtiyac meyarının həddi 105 manat məbləğində təsdiq edilsin.

**Maddə 2. Qanunun qüvvəyə minməsi**

Bu qanun 2016-cı il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 oktyabr 2015-ci il*

# "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının nəqliyyat sektorunda son illər bir sıra irimiqyaslı infrastruktur layihələri həyata keçirilmişdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin, müasir hava limanlarının, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi və dəmir yolu xətlərinin yenilənməsi ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsində mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinin başa çatması Avropa və Asiya ölkələri arasında yüklərin daşınmasında Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaqdır.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin təsisçi ölkələri (Rusiya, İran, Hindistan) arasında ticarət əlaqələrinin geniş potensiala malik olması, bu dəhlizin iştirakçısı qismində Azərbaycan Respublikasının əlverişli tranzit imkanlarından geniş istifadəni, habelə, Azərbaycan dəmir yollarının İran dəmir yolları şəbəkəsi ilə əlaqələndirilməsi üçün təxirəsalınmaz tədbirlərin görülməsini zəruri edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizində iştirakın Azərbaycan üçün əhəmiyyətini nəzərə alaraq, bu istiqamətdə görülən işlərin sürətləndirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QSC ilə birlikdə "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə Azərbaycan dəmir yollarının İran dəmir yolları şəbəkəsi ilə əlaqələndirilməsinə dair Azərbaycan Respublikası və İran İslam Respublikası arasında əməkdaşlıq barədə çərçivə sazişinin və Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində, Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi və onun maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası ilə İran İslam Respublikasının müvafiq qurumları arasında müqavilənin layihələrini razılaşdıraraq Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**2.** Astara (Azərbaycan Respublikası) dəmir yolu stansiyasından Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədinə qədər dəmir yolu xəttinin, habelə bu Sərəncamın 1-ci hissəsində göstərilən müqaviləyə uyğun olaraq Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində, Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi işlərinin layihələndirilməsi və həyata keçirilməsi "Azərbaycan Dəmir Yolları" QSC-yə həvalə edilsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti bu Sərəncamın 2-ci hissəsində göstərilən dəmir yolu körpüsü ilə əlaqədar gömrük və sərhəd infrastrukturunun yaradılmasını təmin etsinlər.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**4.1.** bu Sərəncamın 2-ci və 3-cü hissələrində göstərilən infrastruktur layihələri ilə əlaqədar torpaqların dövlət ehtiyacları üçün alınması məqsədi ilə zəruri tədbirlər görsün;

**4.2.** bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**5.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci, 3-cü hissələrində və 4.1-ci bəndində göstərilən tədbirlərin maliyyələşdirilməsini təmin etsin.

**İlham ƏİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı şəhəri, 7 dekabr 2015-ci il.***

# Növbəti treninqlər də uğurla keçib



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbər işçiləri üçün növbəti treninqlər keçirilib. Noyabrın 30-dan başlayan və Ernst & Young Akademiyası tərəfindən aparılan treninqlər dekabrın 25-nədək davam edib.**

Birinci treninq "İnzibati qərarlardan irəli gələn faydalar və risklər" mövzusunda olub. Ernst & Young Akademiyasının nümayəndəsi Anna Qriqoraş 2 gün ərzində şirkətin məsrəflərinin optimizasiyasına cavabdeh olan rəhbər heyətlə məsrəflər və qiymət siyasəti ilə bağlı qərarların qəbulunda əsas yanaşmalar, xərclərin və gəlirlərin təhlili sistemləri və sair mövzularda interaktiv dialoq aparıb, bu sahələrdə praktiki vərdişlərin inkişafı üçün tövsiyələrini verib.

Sonrakı 4 treninq isə "Effektiv menecer", "Qeyri-maliyyə sahəsi rəhbərləri üçün maliyyə anlayışı", "Effektiv ünsiyyət" və "Fəaliyyətin səmərəliliyinin idarəedilməsi" mövzularında təşkil olunub. Dinləyicilərə iş prosesinin səmərəliliyinin artırılması, müştərilərlə daha operativ və sıx əlaqələrin qurulması, izafi xərclərin qarşısının alınması, iqtisadi fəaliyyətdə risklərin qiymətləndirilməsi istiqamətlərində yeni bilgilər verilib.



# Azərbaycan nümayəndə heyəti Beynəlxalq Dəniz Təşkilatı Assambleyasının sessiyasında iştirak etmişdir

**Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti Birləşmiş Millətlər Təşkilatının ixtisaslaşmış agentliyi olan, 1995-ci ildən Azərbaycan Respublikasının üzvü olduğu Beynəlxalq Dəniz Təşkilatının (IMO) London şəhərində yerləşən baş qərargahında noyabrın 23-dən dekabrın 2-dək keçirilən Beynəlxalq Dəniz Təşkilatı Assambleyasının 29-cu sessiyasında iştirak etmişdir.**




Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasından bildirilib ki, Beynəlxalq Konvensiyaların statusu və təşkilata üzvlük barədə hesabatın və Təşkilatın komitələri tərəfindən təqdim edilən hesabatların dinlənilməsi, həmçinin Beynəlxalq Dəniz Təşkilatının yeni baş katibinin, Assambleyanın yeni prezidentin və vitse-prezidentlərin seçilməsi, Şuranın üzvlərinin seçilməsi və digər məsələlərlə bağlı müzakirələrin aparılması sessiyanın gündəmində duran əsas məsələlər olmuşdur.

Sessiya müddətində, Azərbaycan nümayəndə heyətinin Beynəlxalq Dəniz Təşkilatının rəsmiləri, sessiyaya qatılan bir sıra üzv dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşləri keçirilmiş və fikir mübadiləsi aparılmışdır.

Assambleyanın 29-cu sessiyasında Beynəlxalq Dəniz Təşkilatının baş katibi Koji Sekimizunun fəaliyyəti dövründə görülmüş işlər və əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verilmiş və həmin işlərin məntiqi nəticəsi olaraq, son dövrlərdə əvvəlki illərlə müqayisədə dəniz quldurluğu hallarının azalması diqqətə çatdırılmışdır.

Qeyd edilən sessiya zamanı Assambleya tərəfindən Beynəlxalq Dəniz Təşkilatı Şurasının Koreya Respublikasının nümayəndəsi Kitak Limin təşkilatın yeni baş katibi seçilməsi barədə təklifi müzakirəyə qoyulmuş və Kitak Lim yeni baş katib seçilmişdir. Azərbaycan nümayəndə heyəti Kitak Limi belə bir mötəbər vəzifəyə seçilməsi münasibəti ilə təbrik etmiş, gələcək fəaliyyətində müvəffəqiyyətlər arzulamışdır.

Həmçinin İspaniya Krallığının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfiri Federiko Trillo-Fiqueroa Martinez-Konde dörd illik (2016-2020) müddətə Beynəlxalq Dəniz Təşkilatının ali idarəetmə orqanı olan Assambleyanın yeni prezidenti vəzifəsinə seçilmişdir.

Sessiyada Beynəlxalq Dəniz Təşkilatının komitələrinin hesabatları dinlənilmiş və dəniz nəqliyyatı sahəsi ilə bağlı bir sıra mühüm sənədlərə təklif edilmiş dəyişikliklər nəzərdən keçirilmişdir.

Sessiya zamanı Beynəlxalq Dəniz Təşkilatına Üzv Dövlətlərin Könüllü Audit Yoxlamasından keçməsi və dəniz nəqliyyatı sahəsinə dair bir sıra digər mühüm normativ sənədlər barədə də ətraflı müzakirələr aparılmışdır.

Beynəlxalq Dəniz Təşkilatı Assambleyasının 29-cu sessiyasında Beynəlxalq Dəniz Təşkilatının ali icra orqanı olan Şura üzvlüyünə seçkilər keçirilmiş, ümumilikdə 40 dəniz dövləti Şuranın yeni üzvü seçilmişdir.

Dünyanın 171 dövlətinin üzv olduğu Beynəlxalq Dəniz Təşkilatının Assambleyasının 29-cu sessiyası öz işini dəniz təhlükəsizliyi üzrə bir sıra mühüm qərarların qəbul edilməsi ilə yekunlaşdırılmışdır.

### 12 dekabr Ümummilli Lider Heydər Əliyevin anım günü idi

# Ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqına arxalanan müdrik zəka sahibi

**Tarixi şəxsiyyətlər əsrlərin və nəsillərin yaddaşında əbədi yaşayırlar. Zaman ötdükcə onların xalqı və vətəni üçün etdiklərinin, ölkəsinin inkişafındakı xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır. Azərbaycanın 1970-ci illərdən başlayan inkişafı, uğurları və yüksəlişi ümummilli liderimiz, müdrik zəka sahibi Heydər Əliyevin adı ilə bağlıdır. Böyük rəhbərin hakimiyyətdə olduğu dövr Azərbaycan elminin, təhsilinin, səhiyyə və mədəniyyətinin, iqtisadiyyatının sürətli tərəqqisi ilə yadda qalmışdır. Bu illər milli-mənəvi dəyərlərimizin qorunması, vətəndaşların sosial həyat tərzinin yaxşılaşdırılması, dünya azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması, gənclərimizin dövlətçiliyimizin tərəqqisi prosesinə cəlb edilməsi Heydər Əliyev strategiyasının uğuru kimi qeyd olunmalıdır.**



Ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olub. Azərbaycan əsrin sonunda Heydər Əliyevin sayəsində ən irimiqyaslı iqtisadi layihələrin mərkəzinə çevrilib. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi hələ 70-80-ci illərdə təməli qoyulmuş potensiala söykənir. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yeniləşib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya, müəssisələri istifadəyə verilib. Elmi-mədəni tərəqqiyə nail olunub, ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib. Bu gün neft potensialının reallaşmasında, "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsində mühüm yeri olan Dərin Özüllər Zavodu kimi dünya miqyaslı müəssisələr inşa edilib. Bununla da böyük öndərimiz hələ siyasi rəhbərliyinin birinci mərhələsində yeni inkişaf strategiyasını müəyyənləşdirib və az vaxtda onu uğurla həyata keçirib.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimizin azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Azərbaycanı hərtərəfli tərəqqi yoluna çıxaran ümummilli lider Heydər Əliyevin müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrün nailiyyətləri göz önündədir: ictimai-siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz - bütün bunlar Azərbaycanın həqiqətləridir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ən mühüm uğurlardan biri atəşkəsin əldə edilməsi olmuşdur. Belə bir faktı qeyd etməyə dəyər ki, Heydər Əliyevin ölkə iqtisadiyyatında köklü dəyişikliklərə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanmış və 1994-cü ilin sentyabrında dünyanın iri şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalanmışdır. İndi ölkə iqtisadiyyatının sürətli inkişafında mühüm amilə çevrilmiş Heydər Əliyevin neft strategiyası böyük uğurla həyata keçirilir.

Dünyanın məşhur siyasətçiləri, dövlət xadimləri Heydər Əliyevi siyasət nəhəngi, siyasət şahmatının mahir ustası adlandırırdılar. O, tarixi perspektivləri qabaqcadan görmüş, ən çətin məqamlarda düzgün qərarlar qəbul etmək bacarığı ilə çoxlarını heyran qoymuşdur. Onu Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll, Atatürk kimi nəhənglərlə müqayisə edirlər.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firəvan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü. Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu, Vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Ulu öndər əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, Azərbaycanı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.

Ulu öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və mübağiləsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, başladığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir tarix məktəbini bitirmək deməkdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri var.

Heydər Əliyev həyatı boyu həmişə xalqa arxalanmışdı: "Mənim həyat amalım bütün varlığını qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib". Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir.

Heydər Əliyev fövqəlbəşər bir dühа kimi xalqın əbədi məhəbbətini qazandı. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə abidə ucaldıb. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideallarını öz yolunda mayaka çevirəcəkdir. Heydər Əliyev irsi hələ uzun illər xalqımızın müstəqillik yolunu işıqlandıracaqdır.

Heydər Əliyev dünyanın nadir insanlarından idi. O, hamının qəlbinə yol tapmağı bacarır, yaddaşlarda dərin iz qoyurdu. Təkrarsız, heyrətamiz yaddaşa malik Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu yalnız milli maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi. Bu yenilməz şəxsiyyət həm də təvazökarlıq simvolu idi. Ona görə də təkcə bizim xalqımız deyil, bütün dünya bu görkəmli dövlət xadiminə, əsrimizin siyasi həyatında mühüm yer tutmuş, uzun və şərəfli yol keçmiş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış insana dərin hörmət və ehtiram bəsləyir.

Ümummilli liderimizin xalqın birliyi yolunda göstərdiyi möhtəşəm fəaliyyəti hər bir soydaşımız üçün örnək olmalıdır. Biz Azərbaycanı sevməyi Heydər Əliyevdən öyrənməliyik. "Azərbaycan mənim ürəyimdir, nəfəsimdir" - deyən böyük öndərimiz millətimizin və dövlətimizin əbədiyaşarlığı üçün əvəzsiz bir siyasi xətt, ideoloji baza miras qoydu. Heydər Əliyevin həyat və fəaliyyəti böyük bir məktəbdir və daim öyrənilməlidir. Şükürlər olsun ki, ulu Tanrı xalqımızın taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə biləcək, bütün düyünləri açmağa qadir olan Heydər Əliyev dühasını kimi böyük şəxsiyyət də qismət edib. Cəmiyyətə xidmət nümunəsi olan bu böyük şəxsiyyət həmişə xalqa arxalanır və deyirdi: "Xalq mənim dayağım, gücüm və inamımdır". Xalq yolunda canını fəda etmiş, bütün həyatı boyu Vətənini və millətini düşünmüş, onun əsgəri olmuş ümummilli liderimiz əbədiyaşarlıq qazanmışdır.

Heydər Əliyev və onun əməlləri daim yaşayacaq, Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş Ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Bugünkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən qoyulub. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanırıq ki, dövlətimiz milli öndərimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən layiqətli davamçısı cənab İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edəcək, müstəqilliyini və suverenliyini daha da möhkəmləndirəcəkdir.

**Q. MƏMMƏDOV.**

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV HAQQINDA DEYİMLƏR**

Heydər Əliyevin ölümündən sonra dünya bir qədər balacalaşmışdır.

***Riçard ARMİTAC***

Mübaliğəsiz demək olar ki, o, siyasət nəhəngi idi.

***Vladimir PUTİN***

O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi.

***Toni BLEYER***

Belə bir kəlam var: insan öz ömrü boyu ağac əkməli, ev tikməli və oğul böyütməlidir. Heydər Əliyev öz ömrü boyu çiçəklənən Azərbaycan adlı bir bağ salmış, adı müstəqil Azərbaycan olan bir ev qurmuş, Azərbaycan xalqının etibar etdiyi ləyaqətli bir oğul böyütmüşdür.

***Villem VANT VOUT***

Heydər Əliyev öz davamlı töhfələri ilə Azərbaycanın uzunmüddətli iqtisadi firavanlığının əsasını qoydu.

***Dik ÇEYNİ***

O, qeyri-adi bacarığa və fitri müdrikliyə malik olaraq, özünün bütün şüurlu həyatını Vətənə xidmətə həsr etmişdir.

***Yuri YAROV***

Onun təkcə Azərbaycan xalqı qarşısında deyil, həm də dünya birliyi qarşısında xidmətləri böyükdür.

***II İLYA***

Bu güclü və cəsur insanı tanıyanların hamısı onun nurlu xatirəsini qəlbində əbədi saxlayacaqdır.

***Boris YELTSİN***

O, yeni ideyalara və dialoqa həmişə hazır olmaqla, öz əqidəsinə sadiq qalan prinsipial bir insan idi.

***Canni BUKİKKİO***

Onun adı dünya tarixinə həmişəlik yazılacaqdır.

***L. SLUTSKİ***

Biz həqiqətən Böyük insanı, Qoca Qafqazın məğrur oğlunu itirdik.

***Q. MAXAÇOV***

O, xalqının qayğısına qalırdı və özünü xalqına fəda etdi.

***Çlaubenq ÇLU***

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV HAQQINDA DEYİMLƏR**

Ona yaxın olmaq möcüzə idi. Həyatda yalnız bircə dəfə baş verə biləcək möcüzə.

***Herri HOULİHƏN***

Heydər Əliyev böhranlı dövrdə, mübarizə anlarında taleyüklü qərarlar qəbul ediləcək vaxtda millətin ehtiyac duyduğu lider idi.

***Efraim SNEH***

Bir çox ölkələrdə yeni zəmanənin yaradıcıları onun nadir təcrübəsindən mütləq bəhrələnəcəklər.

***Oljas SÜLEYMANOV***

Ən çətin vəziyyətlərdə yeganə düzgün və dəqiq qərar tapmaq bacarığı həm ölkədə, həm də bütün dünyada ona şöhrət və hörmət qazandırdı.

***Georgi ŞYOKİN***

Bu dahi insan digər dahilərdən qat-qat böyükdür.

***Nikas SAFRONOV***

Heydər Əliyev hər bir millətin şərəfi ola bilərdi.

***Sergey BABURİN***

# “Dil - Karyeraya gedən yol”







**Noyabrın 26-27-də Azərbaycan Dövlət Dəniz Akademiyasında ali məktəb tələbələrinin “Dil - Karyeraya gedən yol“ 2-ci Ümumrespublika müsabiqəsi keçirildi. Təhsil Nazirliyi və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin dəstəyi ilə təşkil olunan müsabiqədə ölkənin qabaqcıl ali məktəblərinin tələbələri iştirak edirdilər. Mövzunun aktuallığı, gənclərin karyera arzuları onların belə müsabiqələrə marağını artırır. Xüsusilə də xarici dillərə yiyələnmək bacarığı bu gün gələcəyini müəyyənləşdirən hər bir gənc üçün artıq prioritet məsələyə çevrilib.**

Müsabiqənin açılış mərasimində Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru Çingiz Əliyev Azərbaycan Prezidenti İlham Əliyevin son illərdə dövlət gənclər siyasəti ilə bağlı imzaladığı sənədlərin əhəmiyyətindən danışdı. Bildirdi ki, özlərini dünyanın hər hansı bir mötəbər ali məktəbininin tələbəsi görmək istəyən, öz karyeralarını qurmaq arzusunda olan gənclər xarici dillərin öyrənilməsinə diqqəti artırmalıdırlar. Əgər ötən il keçirilən müsabiqədə 4 universitetin tələbələri iştirak etmişdisə, builki müsabiqəyə artıq 12 ali məktəbin tələbələri qoşulub. Bunlar Dəniz Akademiyası ilə yanaşı, Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçılık Akademiyası, Neft və Sənaye Universiteti, Texniki Universitet, İqtisad Universiteti, Bakı Slavyan Universiteti, Mədəniyyət və İncəsənət Universiteti, Aviasiya Akademiyası, Memarlıq və İnşaat Universiteti, Dövlət Aqrar Universiteti və Sumqayıt Dövlət Universitetidir.

Mərasimdə Dəniz Akademiyasının yaranma tarixini əks etdirən videofilm də nümayiş olundu, müxtəlif ali məktəblərin müəllimlərindən ibarət münsiflər heyəti təqdim edildi. ADDA-nın tədris və tərbiyə işləri üzrə prorektoru, professor Faiq Nağıyevin sədrlik etdiyi münsiflər heyətinə ADU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Jalə Qəribova, ADPU-nun “İngilis dili” kafedrasının əməkdaşı Cəmilə Hüseynova, ADPU-nun “İngilis dili” və onun tədrisi metodikası” kafedrasının əməkdaşı Sevda Xəlilova, ADU-nun “Təlimdə innovasiyalar” kafedrasının müdiri Fatma Qurbanzadə, AMEA-nın Dilçilik İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Məhəbbət Əsədova, BDU-nun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Sevinc Mənsimzadə, ADDA-nın “İctimai fənlər və dillər” kafedrasının müdiri, dosent İlqar Abdullayev, həmin kafedranın baş müəllimi Samid Süleymanov, “Humanitar və dillər” kafedrasının baş müəllimi Günay Məhərrəmova kimi qabaqcıl elm və təhsil işçiləri daxil idi.







Müsabiqənin şərtləri bütün iştirakçılara çatdırıldıqdan sonra tələbələrin məruzələri dinlənildi. Hər tələbəyə seçdiyi mövzunu 4 dəqiqə ərzində audio-vizual materialların köməyi ilə təqdim etmək şansı verildi. Tələbələr xarici dildə çıxış etməklə bir daha karyeraya gedən yolda dil amilinin önəmli bir vasitə olduğunu göstərdilər.

Noyabrın 27-də “Dil - Karyeraya gedən yol“ 2-ci Ümumrespublika müsabiqəsinin nəticələri elan olundu.

Birinci yerə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Faiq Xasayev layiq görüldü. Qalibə 1-ci dərəcəli diplom və noutbuk təqdim edildi. İkinci yeri Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsi Kamran Lətifov tutdu (2-ci dərəcəli diplom və planşet). Üçüncü yerə isə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi Səidə Mustafazadə çıxdı (3-cü dərəcəli diplom və mobil telefon).

# "Journal of Commerce" Bakı Limanından bəhs edib

**ABŞ-ın məşhur "Journal of Commerce" jurnalında bu nəşrin redaktoru Turlok Muninin Bakı Beynəlxalq Dəniz Ticarət Limanından bəhs edən "Xəzər dəniz limanı Çin-Avropa yerüstü əlaqələri üçün imkanlar açır" adlı məqaləsi dərc edilib.**

Məqalədə Xəzər dənizinin ən qədim və ən böyük limanı olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşasının birinci fazasının 2017-ci ildə bitəcəyi bildirilir: "Çindən tutmuş Mərkəzi Asiya və Avropayadək daşımalara töhfəsini verəcək Bakı Limanı il ərzində 11,5 milyon ton yük və 50000 ədəd konteyner aşırma gücünə malik olacaq". Bu isə Bakı Limanının ölkə və region iqtisadiyyatında xüsusi mövqeyə malik olması və nəqliyyat qovşağına çevrilməsinə gətirib çıxaracaq və Azərbaycanın qeyri-neft sektorunun daha da şaxələnməsi ilə nəticələnəcəkdir.

Bakı şəhərindən 70 kilometrlik məsafədə - Ələt qəsəbəsində yerləşən Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Azərbaycan hökumətinin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində yeni çağırışdır. Bu limanın Çinin "Belt and Road" investisiya planından irəli gələn Çin, Mərkəzi Asiya və Avropa ölkələri arasında yeni quru yollarının inkişafından böyük fayda qazanacağı gözlənilir.

Məqalədə, həmçinin müəllifin Bakı Beynəlxalq Dəniz Ticarət Limanının baş direktoru Taleh Ziyadovdan aldığı müsahibəyə də yer verilib. Azərbaycan hökumətinin xüsusi logistik və ticarət zona üçün tənzimləyici hüquqi çərçivə hazırladığını, o cümlədən beynəlxalq terminal və logistika şirkətlərini regiona cəlb etmək üçün təşviq planları tərtib etdiyini bildirən T. Ziyadov bununla da limanın ölkənin tarixi İpək Yolunun canlanmasında böyük rol oynayacağını qeyd edib: "İpək Yolunun yenidən canlanmasının ən mühüm cəhəti bütün ölkələrin öz infrastrukturunu təkmilləşdirilməsi və siyasətlərini ticarət, gömrük və tranzit prosedurlar ilə ahəngləşdirilməsi prosesinə təkan verməsidir".

Məqalədə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Avropa, Sinqapur, Dubay və Çinin bir neçə nüfuzlu şirkətləri ilə mühüm əlaqələr qurduğu da vurğulanıb.




Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 18 mart 2015-ci il tarixli Sərəncamı ilə "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC yaradılıb. Hazırda Bakı Limanının Avrasiyada nəqliyyat və logistika mərkəzinə çevrilməsi istiqamətində beynəlxalq standartlara əsaslanan işlər görülür. Xəzər dənizində ən böyük liman olan Bakı Limanının Qaradağ rayonunun Ələt qəsəbəsində tikilməkdə olan yeni kompleksinin hər üç tikinti fazası bitdikdən sonra yükaşırma qabiliyyətinin 25 milyon ton olması nəzərdə tutulur.

## Nəqliyyat müəssisələrində çalışanların güzəranı yaxşılaşır

**Cari ilin yanvar-sentyabr aylarında nəqliyyat müəssisələrində işləyən 73,6 min muzdlu işçinin 72,1 faizi dövlət, 27,9 faizi qeyri-dövlət müəssisələrində çalışmışdır.**

İşçilərin 54,3 faizi yerüstü və boru kəməri, 9,2 faizi su, 16,8 faizi hava nəqliyyatı, 19,7 faizi isə köməkçi və əlavə nəqliyyat fəaliyyəti göstərən müəssisələrdə işləmişdir.

2014-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə nəqliyyatçıların orta aylıq əmək haqqı 3,9 faiz artaraq 560,1 manat olmuşdur. Bu göstərici dəniz nəqliyyatında 1043,3 manat, hava nəqliyyatında 822,3 manat, boru kəməri nəqliyyatında 716,9 manat, metro nəqliyyatında 583,7 manat, avtomobil nəqliyyatında 476,1 manat, dəmir yolu nəqliyyatında isə 256,1 manat təşkil etmişdir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə əmək haqqı dəniz nəqliyyatında 41,6 faiz, hava nəqliyyatında 4,6 faiz, boru kəməri nəqliyyatında 1,9 faiz artmışdır.

DSK-nın məlumatına görə, informasiya və rabitə müəssisələrində işləyənlərin sayı 26,4 min nəfər, bir işçinin orta aylıq əmək haqqı isə 1,8 faiz artaraq 748,3 manat olmuşdur.

# Əlil uşaqları sevindirməkdən xeyirxah iş yoxdur







**Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə dünya miqyasında keçirilən 3 dekabr - Beynəlxalq Əlillər Günü Ümummilli liderimiz Heydər Əliyevin müvafiq sərəncamı ilə 1994-cü ildən etibarən Azərbaycanda da qeyd olunur.**

3 dekabr - Beynəlxalq Əlillər günü ərəfəsində Səbail Rayon İcra Hakimiyyəti və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"Qapalı Səhmdar Cəmiyyətinin təşkilatçılıgı ilə Yaxt-klubda tədbir keçirildi. Səbail rayonu ərazisində yaşayan əlillərin, Daun Sindromlu Şəxslərin Assosiasiyası və UAFA əlil uşaqlar təşkilatının üzvləri, Saray qəsəbəsindəki internatda və 219 saylı uşaq evində tərbiyə və təhsil alan 150-dən çox əlil uşaq şənliyə dəvət almışdılar.

Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Xalidə Bayramova çıxışında qeyd etdi ki, Səbail rayonunda bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir və əlillərin sosial problemlərinin həlli, onların işlə təmin olunmaları ilə bagli konkret işlər görülür. Son vaxtlar əlil uşaqlar və gənclər arasında teztez müxtəlif xarakterli idman yarışları keçirilir. Əlillər və əlilliyi olan şəxslər sırasında ali təhsilli rəssamlar, idmançılar, sənət adamları, müəllimlər və müxtəlif peşə sahibləri var.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sədrinin müavini Cəbrayıl Mahmudlu çıxış edərək əlilliyi olan şəxslərə göstərilən dövlət qayğısından, müxtəlif reabilitasiya mərkəzlərində əlillər üçün yaradılan şəraitdən danışdı. Bildirdi ki, Heydər Əliyev Fondu tərəfindən internat evlərinin, müxtəlif uşaq sanatoriyalarının yaradılması, əllillərin sosial reabilitasiyası sahəsində görülən işlər əlillərin cəmiyyətə inteqrasiyasına müsbət təsir göstərir.

Şənlikdə uşaqlar üçün təşkil edilən əyləncəli oyunlar, şən zarafatlar, incəsənət ustalarının təqdim etdikləri rəngarəng musiqi çələngi onların bayram ovqatını daha da artırdı. Sonda müxtəlif bilik və idman yarışlarında qalib gələn uşaqlara diplomlar və hədiyyələr təqdim olundu.







# Dünya okeanında suyun səviyyəsinin təqribən 7 metr qalxacağını proqnozlaşdırırlar

**ABŞ-ı hər 24 ildən bir 2012-ci ildə Nyu-Yorku batıran Sendi kimi qasırğalar gözləyir. Bu nəticəyə son bir neçə min ildə orada suyun nə qədər qalxdığını araşdıran Rutgers Universitetinin alimləri gəliblər. Əvvəllər suyun səviyyəsinin 2,25 metr qalxması ilə bağlı fəlakətli daşqınlar 500 ildə bir dəfə baş verirdi. Amma qlobal istiləşmə və Dünya okeanı səviyyəsinin qalxması bu cür fəlakətlərin başvermə tezliyini artırıb.**



Bencamin Hortonun proqnozuna görə, 130 ildə bir dəfə Nyu-Yorkda suyun səviyyəsi daha yüksək, 3 metrdən də yuxarı qalxa bilər. Əvvəllər bu, 3000 ildə bir dəfədən tez baş verməyib. Hortonun Rutgers Universitetindən olan həmkarları bir neçə il əvvəl məsələni daha dərindən araşdırıblar. Onlar Virciniya (ABŞ), Yeni Zelandiya və Sakit okeanın şimal hissəsindəki Enivetok mərcan adasında süxurları tədqiq ediblər.

Süxurlar 5 milyon il əvvəl başlayan və təqribən 2,5 milyon il sonra başa çatan Plision dövrünün çöküntüləri olub. O dövrdə iqlim, ümumilikdə, indiki iqlimi xatırladıb, lakin planetdə orta temperatur 2-3 dərəcə yüksək olub. Yəni qlobal istiləşmə dayanmazsa, bu cür temperatur artıq yaxın vaxtlarda mövcud ola bilər. Alimlər çöküntülərin izotop tərkibini tədqiq edərək müəyyənləşdiriblər ki, o vaxt okeanın səviyyəsi indikindən 20 metr yüksək olub. Belə ki, gələcəkdə qütb buzlaqlarının əriməsi nəticəsində suyun səviyyəsi bu qədər qalxa bilər. Onda Hortonun hesablamalarını bunun yanında ümidverici proqnoz adlandırmaq olar.

Antarktida əriyir, ondan müntəzəm böyük buz təbəqələri ayrılır. Meteoroloqların müşahidələrinə görə isə, XX əsrin ikinci yarısında Cənub qütbündə havanın orta illik temperaturu Selsi üzrə 2,5 dərəcə artıb və artmaqda davam edir. Nəticədə qlobal istiləşmə ona gətirib çıxara bilər ki, Antarktidada, ümumiyyətlə, buz qalmayacaq. Güman edilir ki, ərimiş buzların suyu okeana axacaq və onu bərabər səviyyədə dolduracaq. Bu səbəbdən okeanın səviyyəsi, təqribən 5 m qalxacaq. Toronto Universitetindən (Kanada) olan xanım tədqiqatçı Cerri Mitrovis və onun həmkarları isə başqa fikirdədirlər. Onlar bildirirlər ki, əvvəlki proqnozlarda təfsilatlar nəzərə alınmayıb. Məhz bunlar, məsələn, Amerika və Cənub-Şərqi Asiya ölkələri üçün çox pis nəticələrə gətirib çıxara bilər.

Cerrinin fikrincə, indi Cənub qütbündəki buz örtüyü öz cazibə qüvvəsi ilə Antarktida ətrafında su qovuğu yaradır. Buz əriyəndən sonra qovuq şimala tərəf yönələcək və orada suyun səviyyəsi qalxacaq. Sonra buzdan və onun çox böyük təzyiqindən azad olmuş kontinent 100 metr yuxarı qalxacaq. Başqa sözlə desək, kif atacaq. Bu isə əlavə su axınlarına səbəb olacaq və bunların hamısı birlikdə, kanadalıların hesablamalarına görə, Yerin oxunu 500 m dəyişdirəcək. Belə yerdəyişmə okeanın səthində fəlakətli qabarma yarada bilər. "Atlantik və Hind okeanlarının sahillərində yerləşən ölkələrin hökumətləri bu təhlükəni bilməlidir. Əvvəlki proqnozlara bir neçə metr də əlavə etmək lazımdır" - tədqiqatlarda iştirak edən alimlərdən biri Natalya Qomez bildirib. Alimlər dünya okeanında suyun səviyyəsinin təqribən 7 metr qalxacağını proqnozlaşdırırlar. Bu isə Nyu-York və Vaşinqtonu tam batmaq təhlükəsi altında qoyur.

# *Yeni sualtı qayıqlar alır*



**İsveç hökuməti yerli "Saab Kockums" hərbi-sənaye müəssisəsindən iki yeni sualtı qayığın alındığını açıqlayıb. Bu barədə İsveçin müdafiə naziri Peter Hultkvist məlumat verib. O, bu qərarı dünyaya mühüm xəbərdarlıq da adlandırıb. Nazir deyib: "Bu növ sualtı qayıqlar məsrəf baxımından çox əlverişlidir, böyük sensor gücünə və uzaq fəaliyyət radiusuna malikdir. Bu - son dərəcə yüksək texnoloji sualtı qayıqlar İsveçin müdafiə qabiliyyətini möhkəmləndirməyə xidmət edəcək".**

Gözlənildiyinə görə, yeni sualtı qayıqlar İsveç Hərbi Dəniz Qüvvələrinin (HDQ) sərəncamına 2020-ci ildə veriləcək. Nəzərdə tutulan sərmayənin həcmi 8,2 milyard İsveç kronu təşkil edəcək.

Qeyd edək ki, son vaxtlar İsveç Baltika regionunda təhlükəsizliklə bağlı vəziyyətin pisləşməsi, sahil sərhəd xəttinin pozulması, habelə Ukraynada baş verən münaqişə ilə əlaqədar özünün müdafiə qabiliyyətini möhkəmləndirmək siyasəti yürüdür. Məsələn, "Saab" və "FMV" (İsveç Müdafiə Nazirliyinin maddi-texniki təminat idarəsi) İsveç Silahlı Qüvvələrinin sualtı müdafiə qabiliyyəti barəsində niyyət protokolu imzalayıblar. Protokol sualtı qayıqların və digər sualtı sistemlərin inkişaf etdirilməsini, layihələndirilməsini və istehsal edilməsini ehtiva edir. Potensial sifarişlərin məbləği təqribən 11,2 milyard İsveç kronuna bərabərdir.



**T.DADAŞOV**

# ANAR: "Mən bu görüşdən, sizin çıxışlarınızdan, suallarınızdan, sizlərlə canlı ünsiyyətdən məmnun qaldım."








**Dekabrın 2-də Azərbaycan Dövlət Dəniz Akademiyasında Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarla tələbə və professor-müəllim heyətinin görüşü keçirildi.**

Akademiyanın rektoru Çingiz Əliyev giriş nitqində belə tədbirlərin gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında xüsusi əhəmiyyətini vurğuladı, bütün yaradıcılığı xalqa sədaqət nümunəsi olan xalq yazıçısına dəvəti qəbul etdiyi üçün minnətdarlığını bildirdi və bu görüşün təkcə tələbələrin deyil, professor-müəllim heyətinin də xatirəsində dərin iz buraxacağına əminliyini ifadə etdi.

Rektor əsərləri dünyanın bir çox dillərinə tərcümə olunan görkəmli yazıçının çoxşaxəli yaradıcılığından, ədəbi dilimizin inkişafına verdiyi əvəzsiz töhfələrdən söz açdı və Akademiyanın kollektivi adından fəxri qonağa xatirə hədiyyəsi təqdim etdi.

Anarı bütün nəsillərin, bütün peşə sahiblərinin yazıçısı adlandıran gənc yazıçı-tənqidçi Pərvin xalq yazıçısının yaradıcılığından danışarkən onun dənizə sevgisindən, şərəfli peşə sahibi olan dənizçilərə xüsusi münasibətindən də söz açdı: "Ağ liman" povestində Təhminə ilə Zaur məhz dəniz kənarında daha da doğmalaşırlar, öz hisslərini bir-birinə etiraf edirlər. "Mən, Sən, O və telefon" hekayəsində Rüstəm Mədinənin varlığını dənizin varlığı ilə müqayisə edir. "Əlaqə"də Tələbə o məşum evi məhz dənizə baxan pəncərələrinə görə seçir, "Ağ qoç, qara qoç" əsərində Məlik Məmmədli öz şəhərini üçə bölünmüş görəndən, bütün o faciəni yaşayandan sonra ağ ya qara qoç seçimiylə məhz dənizin kənarında qarşılaşır. Anarın əsərlərindən onlarla belə sitatlar gətirmək olar. Bu mənada onun bu gün sizlərlə görüşü heç də təsadüf deyil. Və mən dənizi bu qədər sevən, onun haqqında belə yazan yazıçını gələcəyin dənizçiləriylə görüşdürdüyünə görə rektor başda olmaqla bütün təşkilatçılara təşəkkürümü bildirirəm."

Tələbələr görkəmli yazıçının fotolarından hazırlanmış video-slaydı, nasir və dramaturq, ssenarist və kinorejissor, publisist və ictimai xadim kimi fəaliyyətini əks etdirən materialları tədbir iştirakçılarına təqdim etdilər . Məşhurların xalq yazıçısı haqqında fikirləri sözün qüdrəti və qüdrətli sözü ilə çoxsayı oxucuların qəlbində yüksəldiyi zirvənin ucalığına boylanmağa bir



daha imkan verdi. Maraqlı məqamlardan biri də Azərbaycan Dövlət Dəniz Akademiyasında rus dilində təhsil alan Qazaxıstanlı tələbələrin Anarın "Çağrılmamış bayatı"larını yazıldığı baldan şirin dilimizdə səsləndirmələri oldu.

Gələcəyin dənizçilərinin görkəmli yazıçının əsərləri əsasında hazırladıqları səhnəciklər, ədəbi-bədii kompozisiyalar, söylədikləri şeirlər böyük maraqla qarşılandı.

Gənclərin ədəbiyyat, sənət, həyat haqqında çoxsaylı suallarını ətraflı cavablandıran yazıçı hər bir ölkənin və xalqın gələcəyinin, inkişafının və uğurlarının məhz insan amilindən, savadlı, bilikli gənclərindən birbaşa asılı olduğunu xüsusi vurğuladı, tələbələrə daha yaxşı oxumağı, Azərbaycan Dövlət Dəniz Akademiyasında onlar üçün yaradılmış şəraitdən maksimum şəkildə faydalanmağı tövsiyə etdi: "Sizlərə üzümü tutub söyləyirəm ki, yalnız oxumaqla, çalışmaqla, zəhmətkeşliklə həyatda arzularınıza çata bilərsiniz. Ona görə müasir vasitələrdən, internetdən, sosial şəbəkələrdən istifadə ilə yanaşı, kitaba, ədəbiyyata da diqqətinizi əsirgəməyin. Mən bu görüşdən, sizin çıxışlarınızdan, suallarınızdan, sizlərlə canlı ünsiyyətdən məmnun qaldım. Ümid edirəm ki, sizlər üçün də görüşümüz faydalı oldu. Bir daha təşəkkür edirəm, sağ olun."

Sonda yazıçı gənclər üçün kitablarını imzaladı, onlarla birgə xatirə şəkli çəkdirdi.

Həmin gün xalq yazıçısı Azərbaycan Dövlət Dəniz Akademiyasının muzeyini də ziyarət etdi, "Qonaqlar kitabı"na ürək sözlərini yazdı.

***Burda yazını bitirmək, nöqtə qoymaq olardı. Qoymadım. Kitaba, Anarın bənzərsiz yaradıcılığına sevgi qoymadı. Alimlərin fikrincə, müntəzəm mütaliə etmək insanın intellektual səviyyəsini artırmaqla bərabər, həm də onu daha xeyirxah edir. Mütaliəni sevənlər kitabdan uzaq olanlarla müqayisədə, həyatın çətin sınaqlarından çıxmağı daha yaxşı bacarır, depressiyadan, stressdən nadir hallarda əziyyət çəkirlər. Təbii ki, hər kitabdan söhbət getmir. Anarı isə həmişə oxumağa dəyər.***

***Mark Tven deyib ki, həyatda iki ən vacib gün var: biri anadan olduğunu, digəri isə niyə anadan olduğunu başa düşdüyün gündür. Bu məsələdə bəxtimiz onda gətirib ki, Anar "niyə"sini tez dərk edib və dərk etdiyi gündən də bir əlində həmişə qələm olub. Oxucusunu hər cür qaranlıqdan uzaq olmağa, daim işığa doğru getməyə vadar edən qələm.***

**Rasif TAHİROV**

# Qazaxıstanın qəbul edəcəyi əlifba ortaq türk əlifbası olacaq



**Türkdilli ölkələr arasında qarşılıqlı anlaşmanı təmin etmək, inteqrasiya proseslərini sürətləndirmək və elmi tədqiqatları daha geniş şəkildə ələqələndirmək üçün ortaq əlifbanın tətbiqi vacibdir.**

Qazaxıstanda fəaliyyət göstərən Beynəlxalq Türk Akademiyasının məlumatına görə, 34 hərfdən ibarət əlifba-layihə əsasən Azərbaycanda istifadədə olan əlifba əsasında hazırlanıb və indi məhdud çərçivədə tətbiq olunsa da, müəyyən mərhələdə bütün türkdilli ölkələrin istifadəsi üçün tövsiyə ediləcək. Bu fikirdə olan Beynəlxalq Türk Akademiyasının prezidenti Darhan Kıdıralı bildirib ki, Akademiyanın nəzdində Terminoloji Komitənin əsas fəaliyyət sahələrindən biri də elə ortaq əlifba üzərində işi davam etdirməkdir. Hazırda Beynəlxalq Türk Akademiyasının türkdilli ölkələrin ümumi istifadəsi üçün nəzərdə tutulan 34 hərfli ortaq latın əlifbasından istifadə etdiyini bildirən Darhan Kıdıralı bu əlifbanın latın qrafikalı Azərbaycan əlifbasına daha yaxın olduğunu qeyd edib, bunun da obyektiv səbəblərini diqqətə çatdırıb: "Bu hərflər xüsusilə Azərbaycanda hazırda istifadə olunan əlifba ilə eynilik təşkil edir. Azərbaycan Şərq və Qərb türklüyünün arasında bir körpü dili kimi həm oğuz, həm qıpçaq türklərinə yaxın olduğundan, istifadə etdiyi əlifbada türk xalqlarının çoxunun səsi əhatə olunduğundan biz bu əlifbanı transkript, istifadə edəcəyimiz, anlaşa biləcəyimiz ortaq əlifba kimi düşünürük". Qeyd edək ki, artıq Qazaxıstan 2025-ci ilədək latın əlifbasına keçməklə bağlı hazırlıqları həyata keçirir və hesab olunur ki, Qazaxıstanın qəbul edəcəyi əlifba 34 hərfli ortaq türk əlifbası olacaq.

# Yuxuda da öyrənmək mümkündür



**Amerika alimləri yuxu zamanı yaddaşın yenidən aktivləşdirilməsi imkanına dair dəlilləri sınaqdan keçiriblər.**

Onlar tədqiqat iştirakçılarına fortepianoda iki musiqini ifa etməyi öyrətmişlər. Sonra saat yarımlıq yuxu müddətində iştirakçılar üçün bu musiqilərdən birini ifa etmişlər. "Computerworld" jurnalının məlumatına görə, həmin musiqi yuxunun yavaş fazası zamanı zəif tonlarda yenidən canlandırılmışdır. Sınaq iştirakçılarını oyadaraq onlardan iki yaxşı öyrəndikləri musiqini ifa etməyi xahiş etdikdə, iştirakçılar yuxuda olarkən eşitdikləri musiqini ifa etdikləri zaman daha az səhvə yol vermişlər. Beləliklə, yuxuda xarici dil öyrənməyin mümkünlüyü haqqında əfsanələrin həqiqətə uyğun olduğu məlum olmuşdur. Tədqiqatçıların gəldiyi nəticəyə görə, bu üsulla yeni bilik əldə etmək yox, biliyi möhkəmləndirmək mümkündür.

**Tahir DADAŞOV**

İlham MƏMMƏDOV

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Обычная быстрота — Adi tezlik
### CUSTOMARY DESPATCH

Термин, который означает, что фрахтователь обязан производить погрузку и/или выгрузку так скоро, как это возможно при обстоятельствах, существующих во время погрузки или выгрузки.

Yükləmə və ya boşaltma zamanı mövcud olan şəraitdə, nə qədər mümkünsə, bir o qədər tez yükləmə və/və ya boşaltmanı həyata keçirməyə fraxtedənin borclu olduğunu bildirən termin.

### Обязанность по уменьшению убытков — Zərərlərin azaldılması üzrə öhdəlik
### DUTY ON REDUCTION OF THE LOSSES

Условие о возмещении страховщиком издержек страхователя, связанных с предупреждением гибели застрахованного имущества (т. е. действий, которые предпринимает страхователь по отношению к своему имуществу так, как будто оно не было застраховано) или по взысканию им убытков с третьих лиц. В случае полной гибели имущества страховщик возмещает данные издержки в дополнение к сумме страхового возмещения.

Sığortalanmış əmlakın məhvinin qarşısının alınması ilə bağlı sığortalının çəkdiyi xərclərin (yəni sığortalı öz əmlakına münasibətdə sanki onun sığortalanmadığı kimi tədbirlər görür) sığortaçı tərəfindən ödənilməsi və ya onun dəymiş zərərləri üçüncü şəxslərdən alması üçün şərt. Əmlak tam məhv olduqda sığortaçı sığorta ödənişi məbləğinə əlavə olaraq həmin xərcləri də ödəyir.

### Обязательное страхование — İcbari sığorta
### OBLIGATORY INSURANCE

Одна из форм страхования, при которой страховые отношения (в отличие от добровольного страхования) возникают не по волеизъявлению сторон, а в силу закона, на основе соответствующих законодательных или нормативных актов, устанавливающих перечень объектов (рисков) и условия страхования. Обязательному страхованию подлежит, например, государственное имущество, сдаваемое в аренду; обязательным является и страхование пассажиров, окладное и пр.

Sığorta formalarından biri; bu zaman sığorta münasibətləri (könüllü sığortadan fərqli olaraq) tərəflərin iradəsi ilə deyil, qanunun qüvvəsi ilə, obyektlərin (risklərin) siyahısını və sığorta şərtlərini müəyyənləşdirən müvafiq qanunvericilik və ya normativ aktları əsasında yaranır. Məsələn, icarəyə verilən dövlət əmlakı icbari qaydada sığorta edilməlidir, sərnişinlərin və s. sığortalanması da icbaridir.

### Обязательное окладное страхование — İcbari miqdar sığortası
### CERTAIN SALARIED INSURANCE

Разновидность обязательного страхования, характеризующаяся установлением твердых страховых сумм на каждый объект страхования. На основе этих сумм и ставок страховых премий исчисляется ставка страхового платежа.

İcbari sığortanın növ müxtəlifliyi, hər bir sığorta obyekti üçün sabit sığorta məbləğlərinin müəyyənləşdirilməsi ilə xarakterizə olunur. Bu məbləğlər və sığorta mükafatlarının dərəcələri əsasında sığorta ödənişinin dərəcəsi hesablanır.

### Оверсайд-деливери — Oversayd-deliveri
### OVERSIDE DELIVERY

Условие сдачи доставляемого судном груза непосредственно в лихтер или другое судно по варианту борт-борт. Обычно расходы по подаче транспортного средства к борту судна несет покупатель груза, который своевременно обязан поставить в известность перевозчика о своем желании принять груз на условии оверсайд-деливери.

Gəmi ilə çatdırılan yükün bortdan-borta variantı üzrə birbaşa lixterə və ya digər gəmiyə təhvil verilməsi şərti. Nəqliyyat vasitəsinin gəminin bortuna verilməsi ilə bağlı xərcləri adətən yükü satın alan çəkir ki, o da vaxtında daşıyıcıya oversayd-deliveri şərti ilə yükü qəbul etmək arzusunda olduğu barədə məlumat verməyə borcludur.

### Овертайм — Overtaym
### OVERTIME

Производство погрузочно-разгрузочных работ на судне, использование судном услуг лоцмана, буксира, швартовщиков и др. вне рабочего времени для данного порта. Овертайм оплачивается по повышенным тарифным ставкам, превышающим базисные на 50-150%. Самые высокие тарифы применяются в праздничные дни.

Müəyyən liman üçün işdən kənar vaxtda gəmidə yükləmə-boşaltma əməliyyatlarının aparılması, gəminin dəniz bələdçisinin, yedək gəmisinin, gəmi buraz-layanların və digərlərinin xidmətlərindən istifadə etməsi. Overtaym yüksək - əsas tariflərdən 50-150% artıq olan tarif dərəcələri ilə ödənilir. Ən yüksək tariflər bayram günləri tətbiq olunur.

### Оговорка — Qeyd-şərt
### CLAUSE

Условие в торговых и фрахтовых сделках, регулирующее взаимоотношения сторон при наступлении какого-либо обусловленного обстоятельства или в случае его изменения в будущем. В договоре о морской перевозке наиболее часто встречаются следующие стандартные оговорки: оговорка об арбитраже (arbitration clause); бункерная оговорка (bunker clause); оговорка о войне (war clause); оговорка о забастовке (strike clause); ледовая оговорка (ice clause); оговорка о небрежности (negligence clause) и др.

Hər hansı bir şərtləşdirilmiş şəraitin başlandığı zaman və ya gələcəkdə onun dəyişəcəyi halda tərəflərin qarşılıqlı münasibətlərini tənzimləyən ticarət və fraxt müqavilələrinin şərti. Dənizlə yük daşınması müqaviləsində daha çox aşağıdakı standart qeyd-şərtlərə rast gəlinir: arbitraj haqqında qeyd-şərt (arbitration clause); bunker qeyd-şərti (bunker clause); müharibə haqqında qeyd-şərt (war clause); tətil haqqında qeyd-şərt (strike clause); buz qeyd-şərti (ice clause); etinasızlıq haqqında qeyd-şərt (negligence clause) və s.

### Оговорка об исполнении договора — Müqavilənin icrası haqqında qeyd-şərt
### PERFORMANCE CLAUSE

Оговорка в тайм-чартере, обуславливающая ответственность судовладельца за невыполнение договорной скорости, завышенный расход топлива или др. нарушения, которые привели фрахтователя к дополнительным расходам. Возмещение фрахтователю данных расходов обычно производится вычитанием установленной суммы из уплаченной им суммы.

Taym-çarterdə müqavilə ilə şərtləşdirilmiş sürətin yerinə yetirilməməsinə, yanacağın artıq sərfinə və ya fraxtedəni əlavə xərclərə salan digər pozuntulara görə gəmi sahibinin məsuliyyətini şərtləndirən qeyd-şərt. Fraxtedənə bu xərclərin əvəzini adətən onun ödədiyi məbləğdən müəyyənləşdirilmiş məbləğin çıxılması ilə ödəyirlər.

### Оговорка о небрежности — Etinasızlıq haqqında qeyd-şərt
### NEGLIGENCE CLAUSE

Оговорка в договоре морской перевозки (чартере, коносаменте), которая обуславливает освобождение судовладельца (перевозчика) от ответственности за ущерб, явившийся следствием небрежности его служащих (капитана, команды, агента), а не собственной. Эта оговорка дает право покрывать убытки страхованием, при условии, что ранее договор о страховании был заключен.

Dənizlə yük daşınması müqaviləsində (carterdə, konosamentdə) gəmi sahibinin (daşıyıcının) özünün deyil, onun qulluqçularının (kapitanın, komandanın, agentin) etinasızlığı nəticəsində yaranmış zərərə görə məsuliyyətdən azad edilməsini şərtləndirən qeyd-şərt. Bu qeyd-şərt həmin zərərin əvəzini sığorta ilə ödəmək hüququ verir, bu şərtlə ki, daha əvvəl sığorta haqqında müqavilə bağlanmış olsun.

### Ожидаемые, прогнозируемые цены — Gözlənilən, proqnoz edilən qiymətlər
### ANTICIPATED PRICES

Опытные бизнесмены, занятые покупкой или продажей товаров, обладают способностью предвидеть колебания цен. Такое прогнозирование основано на хорошем знании коньюктуры рынка. В чартерах обычно указывается несколько портов выгрузки. В зависимости от уровня цен на груз в том или ином порту, определяется порт выгрузки.

Malların alışı və ya satışı ilə məşğul olan təcrübəli biznesmenlər qiymətlərin dəyişməsini (enib-qalxmasını) qabaqcadan görmək xüsusiyyətinə malikdirlər. Belə proqnozlaşdırma bazar konyukturasını yaxşı bilməyə əsaslanır. Çarterlərdə adətən bir neçə yükboşaltma limanı göstərilir. Bu və ya digər limanda yük üçün qiymətlərin səviyyəsindən asılı olaraq, yükboşaltma limanı müəyyən edilir.

### Озера международные — Beynəlxalq göllər
### INTERNATIONAL LAKES

Озера, окруженные сухопутной территорией различных государств. Такими озерами являются Боденское и Женевское озера в Европе, Великие озера в Северной Америке и др. Использование вод озер международных регулируется международными соглашениями прибрежных государств, устанавливающими линию государственной границы, право на судоходство и условия использования вод в несудоходных целях.

Müxtəlif dövlətlərin quru torpaq ərazisi ilə əhatə olunmuş göllər. Avropada Boden və Cenevrə gölləri, Şimali Amerikada Böyük göllər və s. belə göllərdəndir. Beynəlxalq göllərin sularından istifadəetmə dövlət sərhədlərinin xəttini, gəmiçiliyə hüququ və sulardan qeyri-gəmiçilik məqsədləri ilə istifadəetmə şərtlərini müəyyənləşdirən sahilyanı dövlətlərin beynəlxalq sazişləri ilə tənzimlənir.

*(Davamı var)*

## Sualtı mağaza

**Yaponiyanın "Sony" şirkəti Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay əmirliyində istehsal etdiyi qacetlər üçün qeyri-adi mağaza açmağı planlaşdırır.**

Mağazanın dəniz suyunun dörd metr dərinliyində yerləşəcək rəflərində sukeçirməz "Xperia" smartfon və planşet kompyuter modelləri satışa çıxarılacaq. Bildirilir ki, alıcılar sualtı "Xperia Aquatech Store" mağazasına təcrübəli dalğıcların müşayiəti ilə gəlmək və Yaponiya istehsalçısının sukeçirməz qacetləri ilə tanış olmaq imkanı əldə edəcəklər. Bununla yanaşı, qeyd olunur ki, alıcıların akvalanq geyməsinə ehtiyac olmayacaq: onlar dənizin dibində ayaq üstə dayanmaqla adi qaydada nəfəs ala biləcəklər.



"Sony" şirkətinin vitse-prezidenti Rüdiger Odenbahın sözlərinə görə, "Xperia Aquatech Store" mağazası alıcılarda unudulmaz təəssürat oyatmaqla yanaşı, "Xperia" qacetləri tərtibatçılarının smartfon bazarında innovasiyalara meyilli olduğunu göstərəcək.

## Yüz il əvvəl dənizə atılmış məktub tapılıb

**Alman turistləri Şimal dənizi adalarının birində 100 il əvvəl dənizə atılmış butulka tapıblar. "İndependent" qəzeti yazır ki, bu, belə tapıntılar arasında ən qədimi ola bilər.**

İki təqaüdçü butulkanı "Amrum" adası sahilindən tapıb. Butulkanın içindəki kağızda "Butulkanı sındırın" sözləri yazılıb. Qocalar butulkadakı kağızı ehtiyatla çıxarmağa çalışsalar da, sonradan butulkanı sındırıblar. Üç dildə - ingilis, holland və alman dillərində yazılan kağızda butulkanın hardan və necə tapılması barədə məlumatın və tapılan məktubun "Britaniya Dəniz Kitabxanası Assosiasiyası"na göndərilməsi xahiş olunub. Assosiasiyadan bildirilib ki, butulka Şimal dənizinə 1904 və 1906-cı illərdə dəniz axınının gücünü öyrənmək üçün atılıb. Bu təcrübələr zamanı dənizə minlərlə butulka atılmışdır. Bəziləri uzun illər öncə tapılıb. Alimlər Ginnes kitabına sorğu göndərərək bu rekordu qeyd etməyə çağırıb, butulkanı tapan təqaüdçülərə isə məktubda söz verildiyi kimi şillinq göndəriblər.



**T.DADAŞOV**

## DEYİMLƏR

- Bəzilərinə elə gəlir ki, təkcə antisanitariya olduğu üçün içdiyin quyuya tüpürməzlər ?
- Vicdan əzabının nə olduğunu bilməyənin bildiyi qalan şeylər çürük qoza dəyməz.
- Yamanlıqdan nə qədər bacarırsansa, uzaq qaç.
- Bəxt mənə həmişə ögey kimi baxıb.
- Hətta futbolda da badalağı yaxşı niyyətlə vurmurlar.
- Ağlı az adamlar təkcə vaxtımızı almırlar ki...
- Nəyim olmasa da, yüz deyənim həmişə olub.
- Varlının mərd olmağını arzulamaqdansa, mərdin varlı olmağını arzula.
- Kiminlə istəyirsiniz mərc gələ bilərəm ki, ikiüzlüyü, satqınlığı, özgə malına sahib olmağı ermənilərdən yaxşı bacaran yoxdur, olmayıb, nə qədər ki, kökləri kəsilməyib, olmayacaq da.
- Çəkisi ağır olan səsinin tonunu qaldırmaz.
- Yalan olan yerdən bəla uzaq olmaz.
- İçi boş adamların cibinin dolu olmasından nə fayda?!
- Kişinin gözəlliyi ağlındadırsa, kişilər mütləq gözəl olmalıdırlar.
- Adam var nə hay verər, nə pay.
- Yoxsulluğu "öldürmək" üçün insanlığı diriltmək lazımdır.
- Meyvəsi olmayan ağacı da kəsmək günahdır. Ən azı kölgəsi olur. Kölgəsi olmayanı da kəsmək günahdır. Ən azı oksigen verir.
- Düşməninin sayını bilirsən? Düşməninin dostlarını da üstəgəl.
- Pislik etməyə dili gəlməyənin əli də gəlməz.
- Hətta işin olmayanda da, axırını görə bilmədiyin işə başlama.
- Hər çaqqalın ulamasına getsən, ömrün çöldə keçər.
- Ucuz və ya bahalığından asılı olmayaraq, arabir papağı qabağına qoyub yaxşı-yaxşı fikirləşmək lazımdır.
- Düz adam üçün lap divarın da qulağı olmasının qorxusu yoxdur.
- Qonaq var, təkcə qonaqlardan yox, ev yiyəsindən də xoşu gəlmir.
- Yazarın əlində qələm, sərkərdənin əlində qılınc güclüdür. Tərsinə olanda qılınc da gücdən düşür, qələm də.

*Rasif TAHİROV*



## Kişilərin ürəyi tez qocalır



**Amerikalı alimlər bildirirlər ki, güclü cinsin nümayəndələrinin ürəkləri zəif cinsin nümayəndələrinin ürəkləri ilə müqayisədə qocalmaya daha tez məruz qalır və bu, tamam başqa fizioloji proseslə gedir.**

Tədqiqatçılar qrupu 10 il ərzində 3000 qadın və kişinin ürəyinin vəziyyətini müayinə edib, maqnit-rezonans tomoqrafiyası vasitəsilə onların 3D şəklini çəkiblər.

Cons Hopkins Universiteti yanında Tibb Məktəbindən olan mütəxəssislər bu nəticəyə gəliblər ki, yaşla əlaqədar olaraq həm qadınlarda, həm də kişilərdə ürəyin forması dəyişir. Amma bu dəyişikliklər müxtəlif şəkillərdə baş verir.

Ekspertlər bu fikrə gəliblər ki, kişilər qocalan vaxt onların ürəyi arası kəsilməyən funksiyasını yerinə yetirməkdə çətinlik çəkir. Məhz buna görə, qadınlardan fərqli olaraq, kişilərdə ürək-damar xəstəliklərinə tutulmaq təhlükəsi artır.

Alimlər 10 illik müşahidə nəticəsində müəyyən ediblər ki, illər keçdikcə kişi ürəyinin sol mədəciyi böyüyür. Səbəb isə ürək gərginliklərinin artmasıdır.

Müasir təbabətə görə, sol mədəciyin kütləsinin artması, yəqin ki, ürəyin işemik xəstəliyinin, ürək çatışmazlığı və aterosklerozun inkişafından xəbər verir. Yeri gəlmişkən, bu zaman ürəyin öz kütləsi artmır.

Mədəciyin kütləsi ürəyin əzələ divarlarının qalınlaşması səbəbindən artır, çünki qanı damarlar vasitəsilə qovmaq prosesi çətinləşir.

Zərif cinsin nümayəndələrində isə, ürəyin sol mədəciyinin həcmi yaşla əlaqədar olaraq, kişilərdəki kimi o qədər də dəyişmir.

## Doyunca yatın ki...

**Dünya Səhiyyə Təşkilatının əməkdaşları aparılan tədqiqatların nəticəsində belə qərara gəliblər ki, doyunca yatmamaq insan orqanizminə siqaret çəkməkdən daha çox ziyan vurur, insult və ya infarkt keçirmək ehtimalını artırır.**

Alimlərin fikrincə, doyunca yatmamaq gələcəkdə ürəkdə böyük problemlər yarada bilər. Hər kəs yuxuya ayrılan vaxta məsuliyyətlə yanaşmalıdır. Mütəxəssislər 25-64 yaş arasında 650-dən çox kişinin 11 il ərzində yatmasını müşahidə ediblər. Məlum olub ki, ürək-damar sistemində problemi olan iştirakçıların təqribən 63 faizi doyunca yatmayanlardır. Buna əsaslanaraq, bütün insanlara sutkada 8-10 saatdan az yatmamağı məsləhət görürlər. Hətta 30 dəqiqə az yatmaq da gələcəkdə problem yarada bilər.



**Tahir DADAŞOV**

## Suyu hopduran yol örtüyü hazırlanıb

**Fransalı alimlər suyu hopdura bilən yol örtüyü kəşf ediblər.**

Yeni beton saniyədə 400 litr su uda bilir. Sonra su örtüyün aşağı qatlarına süzülür. Avtomobil yolu gediş üçün daim hamar və rahat vəziyyətdə qalır. Bu zaman suyun axması üçün yolun alt qatına drenaj boruları qoyulmalıdır. Bundan başqa, alt qatdakı su yolu yüksək temperaturdan qorumaqda kömək edir.

## Rəngini mütəmadi dəyişən göl

**Tanzaniyanın şimalında yerləşən bu gölün dərinliyi 3 metrə yaxındır. Adını natron mineralının adından götürüb. Bu su hövzəsi başlanğıcını Şimali Keniyadan götürən və minerallarla zəngin olan Evaso Ngiro çayı ilə qidalanır. Bundan əlavə, may-dekabr aylarında mövsümi yağışlar təxminən 800 mm-dək yağıntı verir. Suyun səviyyəsindən asılı olaraq, gölün qələviliyi 9-10,5 pH arasında dəyişir, temperatur isə 60 dərəcəyə çatır. Bu səbəbdən, suya təsadüfən düşən hər hansı bir canlı (xüsusən, quşlar) həlak olur və zaman keçdikcə cəsədləri minerallaşıb, fotoda görüntülənən "heykəllər"ə çevrilir.**



Natron gölü mütəmadi olaraq rəngini çəhrayıdan qırmızıya dəyişir. Bu, göldə yaşayan mikroorqanizmlərin həyat fəaliyyətinin canlanması ilə bağlıdır.



Təhlükəli gölün özünəməxsus canlılar aləmi var ki, burada birincilik qızılqazkimilər dəstəsindən olan kiçik qızılqazlara (Phoeniconaias minor) məxsusdur. Onlar yuvalarını göl üzərindəki duz adacıqlarında qururlar və beləliklə, gölün suları ilə əhatə olunmuş adacıqlarda yuvaların təhlükəsizliyi təmin olunur.

*Tahir DADAŞOV*

## Maraq dünyası

Dəniz əraziləri də daxil olmaqla Fransanın bütün ərazisi 12 saat qurşağında yerləşir. ABŞ 11, Rusiya 9 saat qurşağını əhatə edir.

Göllərinin sayı ən çox olan ölkə Kanadadır. Dünya göllərinin 60%-i Kanada ərazisindədir.

Oksigenin ən böyük istehsalçısı Rusiyadır. Dünya meşələrinin təqribən 25%-i Sibirdə bitir və ABŞ-ın kontinental hissəsindən çox ərazini əhatə edir ki, bu da Rusiyanı dünyanın ən güclü karbon qazını oksigenə çevirən ölkəsi edir.

Dünyanın ən təhsilli ölkəsi Kanadadır. Bu ölkənin əhalisinin 50%-nin təhsili orta ixtisas təhsilindən aşağı deyil. Kanadadan sonra İsrail - 45% və Yaponiya - 44% gəlir.

Əhalisi ən gənc ölkə Nigeriyadır. Əhalisinin təqribən yarısı 15 yaşınadək yeniyetmələrdir.

Dillərinin sayı ən çox olan ölkə Papua-Yeni Qvineyadır. Ölkənin rəsmi dilində - ingiliscə əhalisinin cəmi 2%-i danışır. Papua-Yeni Qvineya sakinləri 820-dən çox dildən istifadə edirlər ki, bu da dünya dillərinin 12%-ni təşkil edir.



Quam, yolları mərcan liflərindən olan yeganə ölkədir. Təbii qumu olmadığına görə, bu ölkədə asfaltı mərcan liflərindən və neftdən istifadə etməklə hazırlayırlar.

Məhbusların ən çox olduğu ölkə ABŞ-dır. Kimisə həbsxanaya salmaq məsələsində bu ölkəyə tay yoxdur. ABŞ-da dünya əhalisinin 5%-i yaşayır və dünya məhbuslarının 25%-i (təqr. 2,2 mln. insan) məhz onun payına düşür.

BAŞ REDAKTOR
Rasif İman oğlu TAHİROV

ÜNVANIMIZ:
AZ 1003, Bakı şəhəri, Xanlar küçəsi, 22
TELEFONLARIMIZ:
Baş redaktor (050) 670-33-76,
Redaktor (070) 252-39-02

Qəzetin təsisçisi
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “OL” MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 125